# "TurAz Qartalı - 2022" təlimində iştirak edəcək Türkiyə hərbçiləri və aviasiya vasitələri ölkəmizdədir





"TurAz Qartalı - 2022" birgə taktiki-uçuş təlimində iştirak edəcək Türkiyə Hərbi Hava Qüvvələrinin şəxsi heyəti və aviasiya vasitələri ölkəmizə gəlib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a





bildirilib ki, sentyabrın 5-dən başlayacaq təlimdə iki ölkənin Hərbi Hava Qüvvələrinin birgə fəaliyyətlərinin planlaşdırılması, qarşılıqlı əlaqə və döyüş uzlaşmasının öyrənilməsi, eləcə də axtarış-xilasetmə tədbirlərinin icrası və digər tapşırıqlar yerinə yetiriləcək.





Azərbaycan. - 2022.- 3 sentyabr.- S.6.